# Döyüşçü yoldaşlarının xilaskarı – Fəqan!



***Onun arzusu uşaqlıqdan kinorejissor olmaq idi. Məktəb illərində Azərbaycanın və dünyanın şöhrətli kinorejissorlarının həyat və yaradıcılıqları ilə maraqlanardı, öyrənər, oxuyardı. Əsasən döyüş ruhunda lentə alınmış kinolara baxar və bədii kitabları mütaliə etməyi çox sevərdi... Amma... bu gün, Zaqatala rayonu Yeni Suvagil kəndindən olan növbəti şəhid – Fəqan Vahid oğlu Məmmədovun, kinolarda olduğu kimi qəhrəmanlığından, onun Vətən Müharibəsində göstərdiyi şücaətindən, döyüşçü yoldaşlarını necə xilas edib – özünü şəhid etməsindən... danışırlar və hələ əsirlər boyu danışacaqlar.***

Azərbaycanımızın mərd, qəhrəman oğlu – Fəqan Vahid oğlu Məmmədov 1998 –ci ilin iyun ayının 27 –də Zaqatala rayonunun Yeni Suvagil kəndində sadə ailədə dünyaya gəlmişdir. Bu saxur oğlu mülayim, sakit xasiyyətinə görə anası Surət xanıma, işgüzarlıqda və vətənpərvərlikdə isə Birinci Qarabağ savaşının iştirakçısı olan atası – Vahid bəyə bənzəmişdi. İki bacının – Nurcan və Naidənin bir qardaşı idi – Fəqan. Bacılarını çox – çox istəyirdi. Hər dəfə dərsdən qayıdanda onları öpər və əzizləyərdi... Fəqan – Şəhid Akif Qədirov adına Yeni Suvagil kənd 2 saylı tam orta məktəbini əla qiymətlərlə, yüksək balla bitirmişdi.

Məktəbin direktoru Cərullah Əhmədov:

- Bu günlər adını qızıl hərflərlə yazılan şəhid balamız - Fəqan Məmmədov məktəbimizin ən fəallarından olub. Mədəni, yüksək biliyə malik olan, məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edən şagird idi – Fəqan. Fəqan – digər şagirdlərə də nümunə idi. O, məktəbimizi müvəffəqiyyətlə bitirdi və Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin kinorejissorluq fakültəsinə qəbul olundu. Birinci arzusuna qovuşdu. Arzuları çox idi – Fəqanın. Ən böyük arzusu isə vətənpərvərlik, azadlıq, müharibə və düşməndən qisas mövzusunda filmlər çəkmək idi... Lakin, növbəti arzularına qovuşa bilməsə də, böyük qəhrəmanlıq, şücaət göstərərək həlak oldu, döyüş meydanında düşməndən qorxmadı, onlarla mübarizə apardı, döyüşçü yoldaşlarını xilas etdi və qəhrəmanlıq göstərərək, şəhid oldu. Fəqan bütün Azərbaycan xalqının fəxridir və qəhrəman oğludur...

***Bu gün Vətən müharibəsində göstərdiyi şücaətə görə dillər əzbəri olan Fəqanın orta məktəbdə müəllimi olmuş Qəzənfər Yəhudov isə bildirdi ki:***

***'Şəhidlik zirvəsinə yüksələn şagirdi – bütün dərs və məşğələlərdə olduğu kimi, hərbi hazırlıq və idman dərslərinə də yüksək səviyyədə, fəallıqla hazırlaşar, onu digər şagirdlərinə nümunə göstərər və həmişə də əla qiymətlər alardı'. Hərbi hazırlıq, idman yarışlarında da dəfələrlə qalib gəldiyini deyən Qəzənfər müəllim – qeyd etdi ki, bu günki yeniyetmə və gənclərə örnək, nümunə olası qəhrəmanlıq edən – Fəqanın tanınmış kinorejissor olmasına şübhəsi yox idi.***

Bəli, şəhid – fəxrimiz Fəqan Məmmədov təhsil aldığı – ali təhsil ocağında fəal idi. Hələ tələbə ikən – tələbə dostları ilə qısametrajlı filimlərə rejissorluq etmişdi. Ən böyük arzusu isə Qarabağ müharibəsindəki şəhidlərdən çox seriyalı kino çəkmək idi.

Azərbaycanımızın - Zaqatalanın fəxri, şəhid – tələbə Fəqan Vahid oğlu Məmmədov həqiqi hərbi xidmətini 2021 –ci ilin yanvar ayında başa vurub, təhsilini davam etdirməli idi. Hərbi xidmətdə də olduğu dövrdə - nümunəvi hərbi xidmətə, təlim – döyüş tapşırıqlarını yerinə yetirdiyinə görə o, dəfələrlə hərbi hissənin, komandanlığın təşəkkürlərini almış, komandanlıq tərəfindən ona çavuş rütbəsi verilmiş və manqa komandiri təyin edilmişdir.

Bu, Vətən savaşı başlayanda Fəqan qorxmaz hərbiçilərlə cəbhənin ön xəttində düşmənə qarşı vuruşurdu. Onlar dəfələrlə erməni hərbiçilərin həmlələrinin qarşısını almış, onların döyüş texnikasını, canlı qüvvəsini məhv etmiş və düşmənin hücuma keçmək niyyətini puç etmişdir. Döyüşçü yoldaşlarının bildirdiyinə görə ancaq, 6 avqust 2020 –ci il tarixindəki Ağdam bölgəsində ön cəbhədəki döyüş – Fəqan Məmmədov üçün son döyüş oldu. O, həmin döyüşdə əsil şücaət – qəhrəmanlıq göstərdi. Fəqan döyüşçü yoldaşları ilə birlikdə həmin gün düşmənin həmləsini qarşısını almaq üçün hücuma keçiblər, bu zaman düşmən tərəfi təslim olaraq, ağ bayraq qaldırıblar. Belə ki, döyüşdə sağ qalan döyüşçü yoldaşlarının bildirdiklərinə görə - Fəqan qorxu bilmədən hərbiçilərimizlə onları təslim etmək üçün yaxınlaşmaq istəyərkən – hiyləgər ermənilər hərbiçilərimiz istiqamətinə partlayıcı əl qumbarası atıblar. Bu anda Fəqan özünü – partladan əl qumbarasının üzərinə ataraq – döyüşçü yoldaşlarını xilas edib. Özü isə ağır yaralardan həlak olur. Xilas olan döyüşçülər xisləti erməninin hücumunu dəf ediblər.



***Bəli, Fəqan Məmmədov vətənpərvərlik, əsil igidlik göstərərək – Zaqatala rayonunun mərd oğlu, bir saxur balası kimi – adını tarixə saldı. Özü, Azərbaycanımızın, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşçü yoldaşlarını xilas edərək, hünər göstərərək – şəhid oldu. Bu günlər Odlar yurdunun qəhrəman oğlu Fəqan Məmmədovun qəhrəmanlığından hamı ürək dolusu, fərəhlə danışır və onun göstərdiyi şücaət isə indiki gənclərə əsil nümunədir. Əlbəttə ki, şəhid Fəqanın qəhrəmanlığından – onun kinorejissorluq fakültəsində müəllimi olmuş – tanınmış kinorejissor Ayaz Salayev – özünün instaqram səhifəsində paylaşımlar edərək tələbəsinin igidliyi barədə ətraflı şərhlər yazıb. Televiziya kanallarında da dəfələrlə çıxış edərək Ayaz Salayev Fəqanın tələbə - şəhidin göstərdiyi qəhrəmanlığından qəhərlə, ürək dolusu danışıb və onunla fəxr etdiyini bildirib.*** "Bu, bir qəhrəmanlıq epaposiyasıdır, Fəqan kimilər dünyaya nadir hallarda gəlir, onlar ölmürlər, ürəklərdə yaşayırlar. Zaqataladan, saxur millətindən olan, nişanlı, sevimli igid tələbəm - Fəqan Vahid oğlu Məmmədova atılan düşmənin gülləsi – bütün dünyanın tanınmış kinorejissorlarına atılmış atəşdir. Çox, çox təəssüf. Fəqanın çox parlaq gələcəyi vardı – deyir hörmətli Ayaz Salayev.

***Qəhrəmanlığı ilə şəhidlik zirvəsini fəth edən – Fəqan Məmmədovun ən əziz dostları hələ də şokdadırlar. Onun ölümünə, həyatda artıq yoxluğuna inana bilmirlər. Dostları bir ona inanırlar ki, Fəqan həmişə arzuladığına qovuşdu: 'Vətənimizin, hamımızın azadlığı uğrunda gedən ölüm-dirim savaşında əsil vətənpərvər kimi həlak oldu'.***

"Fəqanla çox yaxın dost idim. Bakıda təhsil aldığı vaxt bir mənzildə qalırdıq. O, çox ağıllı, mədəni, bilikli, dünyagörüşlü, haqsızlıqlarla barışmayan bir gənc idi" – deyə dostu Elman Qurbanov – Fəqanla bağlı çox çətinliklə olsa da danışdı:

- İncəsənət Universitetinin Kinorejissorluq fakültəsində oxuyurdu. Gələcəkdə yenilikçi, tanınmış rejissor olmağı arzulayırdı. Onun ən sevimli müəllimi, kinorejissor Ayaz Salayev idi. Sevimli müəllimindən çox şey öyrənmişdi kino sənəti ilə bağlı, bu sahədə getdikcə təkmilləşirdi. Dost kimi də sadiq idi, bir tikəni ortadan bölərdi. İnsanları çox gözəl tanıyardı və hər kəslə dostluq və hər adamla da məsləhət etməzdi. Çox obyektiv idi, yalanı xoşlamazdı, məşğələlərə ciddi hazırlaşardı. Müəllimlərinə qarşı çox tələbkar idi, cəmiyyətdə olan neqativ hallarla barışmaz mövqedə idi – mübarizə aparardı. Həmişə narahat görünürdü, valideynlərindən nigaran idi. Bacılarını lap çox istəyərdi, hər gün onlarla danışardı. Fəqanın sevgisi də saf, ülvi idi. Nişanlısı da ona sadiq idi. Lakin biz əsil dostumuzu, qardaşımızı itirdik...

Şəhid balamızın sevgilisi vardı. Onun nişanlısı doğma Suvagil kəndindən, sadə və zəhmətkeş ailədən idi. Əsgərlikdən sonra toyları olacaqdı. Bir-birilərini saf, ülvi məhəbbətlə sevirdilər... qəfil müharibə isə onların məhəbbətini sevgi dastanına çevirdi... Şair demişkən:

**Dağ başında əriyər buz**
**Göy üzündə sönər ulduz.**
**Təzə gəlin, nişanlı qız**
**Tökür gözdən sel, ağlayır.**

Qəhrəman şəhidimiz – Fəqan Vahid oğlu Məmmədov – oktyabrın 8 –də bütün el – obanın, rayon ictimaiyyətinin nümayəndəliklərinin, dostlarının, hərbiçilərinin, məktəb kollektivlərinin, ziyalıların, bütün idarə və təşkilatların üç rəngli al bayraqlarının müşayiəti ilə əsil igid kimi son mənzilə yola salındı. O, Yeni Suvagil kənd qəbristanlığında Birinci Qarabağ Müharibəsinin şəhidlərinin yanında dəfn olundu. Bəli, şəhidi torpağa basdıranadək, yola salanlar arasında əyninə Fəqanın göndərdiyi əsgər köynəyini geyinən, üçrəngli Azərbaycan bayrağına bükülmüş tabutuna çöməlib, göz yaşlarını axıdan, ölümünə hələ də inanmayan – mərhumun nişanlısı da vardı. Bu, həqiqətən də sevgi, qəhrəmanlıq dastanıdır. Ağlama qızım! Nişanlın Fəqan Məmmədov – ən uca olan, şəhidlik zirvəsinə yüksəldi, bu zirvəyə qalxmaq isə hamıya nəsib olmur. Sən də, onunla hamımız kimi fəxr etməlisən!

...Al qırmızı, güllərə, əklillərə bələnmiş Fəqnın məzarı üstündə iki kağız parçası daha çox diqqəti əlb edirdi. Məzarını ziyarət etdikdən sonra götürüb oxudum. Bacısı Naidənin qardaşı Fəqana yazdığı məktublar idi. Birinci məktub: "Əsgər qardaşıma məktub"undan: "Salam mənim dəyərlim, canımın yarısı qardaşım. Sənin bu gün, 87 günün qaldı. Əsgər qardaşım, bilirəm ki, bu günlərdə cəbhədə şiddətli döyüşlər gedir. Sizdə nə qədər atışmalar olsa da bizim dualarımız qoruyacaq. Təki sən sağ – salamat qayıt gəl, əsgər qardaşım, bundan başqa arzum yoxdu..." İkinci məktubundan sətirlər: "Mənim əsgər, igid, qəhrəman qardaşım, sənin yolunu gülərək gözləyərdim. Amma qismət olmadı. Bizi gözü yaşlı qoyub - getdin. Kaş ki, vaxtı geri ala bilsəm, uşaqlıq illərimizə qayıdardıq, gah dalaşdığımız, gah güldüyümüz illərə geri dönsək, yanımızda yatsan, ama heç zaman qəbul etməzdim. Səni çox sevirəm mənim şəhid qardaşım, Qəhrəman Qardaşım!"... Həmkarım Məhəmməd Şabanoğlu gözəl deyib:

**O, şanlı bir qəhrəmandır,**
**Müqəddəsdir sözü, andı.**
**Qəlbimizdə bir ocaq yandı,**
**Odu sönüb, kül ağlayır.**

Başınızı uca tutun Təmraz baba, Şaban baba, Vahid ata, Yəhya əmi. Ağlamayın Xanım nənə, Sevinc nənə, Surət ana, Nurcan – Naidə bacıları, əzizlərim ağlamayın...

**Ağlama şəhid anası,**
**Sənə baxıb el ağlayır.**
**Yuvasında susdu bülbül,**
**Budağında gül ağlayır.**

**Dərdə - qəmə salma meyil,**
**Nə kədərlən, nə də əyil.**
**O, tək sənin oğlun deyil,**
**Ondan ötrü el ağlayır!**

Ruhun şad olsun şəhid oğulumuz, Sənin haqqında dastanlarda yazılacaq, kinolar da çəkiləcək.

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**